**Azərbaycan Respublikası Prezidentinin 27.02.2020-ci il tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nda Azərbaycan Respublikasının Mərkəzi Bankına aid olan tədbirlərin icrası məqsədilə Mərkəzi Bankın 24 yanvar 2022-ci il 03s nömrəli Sərəncamı ilə təsdiq edilən İş planında nəzərdə tutulan tədbirlər barədə hesabat**

| № | Tədbirin adı | Tədbirin icrası ilə bağlı görüləcək işlər | İcra vəziyyəti |
|---|---|---|---|
| **1. Korrupsiyanın qarşısının alınması və dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər** | | | |
| 1.2 | Dövlət qurumları tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı illik tədbirlər planlarının hazırlanması, həmin tədbirlər planlarının icrası barədə hesabatın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi | Mərkəzi Bank tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı illik tədbirlər planının hazırlanması | Qeyd edilən tədbirin icrası məqsədilə “Azərbaycan Respublikasının Mərkəzi Bankında korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı 2022-ci il üçün Tədbirlər Planı” hazırlanmış və Mərkəzi Bankın 2022-ci il 23 fevral tarixli 14s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. |
| | | Tədbirlər planlarının icrası barədə hesabatın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi | İcra olunub. |
| 1.6 | Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi | Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatları müraciət etdikdə təlimlərin keçirilməsi üçün müvafiq şəraitin yaradılması və işçi heyətinin təlimdə iştirakının təmin edilməsi | Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün qeyri-hökumət təşkilatlarından Mərkəzi Banka müraciət daxil olmamışdır. |

| | | | |
|---|---|---|---|
| 1.9 | Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması | Mərkəzi Bank tərəfindən etik davranış məsələləri ilə bağlı maarifləndirmə işlərinin aparılması | Korrupsiyaya qarşı mübarizə ilə bağlı məsələlər Mərkəzi Bankda daim diqqət mərkəzində saxlanılır və daxili nəzarət sistemi vasitəsilə monitorinq olunur. Mərkəzi Bankın İdarə Heyətinin 26.07.2013-cü il tarixli Qərarı ilə "Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının etik davranış Qaydaları" təsdiq edilmiş və orada korrupsiyaya qarşı müvafiq tədbirlər öz əksini tapmışdır. Eyni zamanda hər il işçilərin qiymətləndirilməsi zamanı hər bir əməkdaşın bankda formalaşmış korporativ mədəniyyətə və etik dəyərlərə, etik davranış normalarına riayət etməsi nəzərə alınır. Maarifləndirmə işləri çərçivəsində Mərkəzi Bankın əməkdaşları üçün hər il olduğu kimi 2022-ci ildə də "Korrupsiyaya qarşı mübarizə və etik davranış" mövzusunda təlim keçirilmişdir. |
| | | Etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması | Cari il ərzində Mərkəzi Bank əməkdaşları tərəfindən etik davranış qaydalarının pozulması ilə bağlı hər hansı bir fakt aşkar olunmamışdır. |

| | | | |
|---|---|---|---|
| **3. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər** | | | |
| 3.4. | “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş nəzarət orqanlarının nəzarət etdikləri monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə illik sahəvi risk qiymətləndirilməsi aparmaları və nəticələr barədə maliyyə monitorinqi orqanını məlumatlandırmaları | Mərkəzi Bankın maliyyə bazarlarına nəzarət olunan subyektlərə münasibətdə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə risk qiymətləndirilməsinin aparılması | 2022-ci ilin birinci yarısında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi (PL/TM) üzrə sahəvi risk qiymətləndirməsi metodologiyası, o cümlədən sorğu cədvəlləri yenilənmişdir. Bu çərçivədə banklar, BOKT-lar, investisiya şirkətləri, həyat sığortası və təkrar sığorta şirkətləri, poçt rabitəsinin milli operatoru və lizinq şirkətləri üzrə risk qiymətləndirilməsi aparılmış, nəticələri Mərkəzi Bankın aidiyyəti struktur bölmələrinə təqdim edilmişdir. Həmçinin, 19.10.2022-ci il tarixli, “PL/TMM sisteminin effektivliyinin artırılmasına dair Tədbirlər Planı”nın icra statusu barədə hesabatda bu risk qiymətləndirməsinin aparılmasına dair məlumatlar maliyyə monitorinqi orqanına təqdim edilmişdir. |
| **4. Dövlət xidmətlərinin təkmilləşdirilməsi sahəsində tədbirlər** | | | |
| 4.1 | Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi | Mərkəzi Bank tərəfindən göstərilən xidmətlərin səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə Mərkəzi Banka gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi üçün maliyyə bazarlarına nəzarət üzrə vahid nəzarət və monitorinq sisteminin istismara verilməsi üçün görülən | Mərkəzi Bankın mandatından irəli gələrək ölkənin maliyyə sektorunun effektiv fəaliyyətinin təşkili, o cümlədən sektor üzrə nəzarət proseslərinin rəqəmsallaşması və bununla da həyata keçirilən biznes proseslərin effektivliyinin və səmərəliliyinin yüksəldilməsi məqsədilə 2020-ci ildə icrasına başlanılmış “Maliyyə bazarlarına nəzarət üzrə vahid nəzarət və monitorinq sisteminin yaradılması” layihəsi yekunlaşdırılmışdır.<br>Mərkəzi Bankın layihə idarəetmə metodologiyasına uyğun olaraq həyata keçirilən layihə çərçivəsində nəzarət baxımından müxtəlif biznes prosesləri əhatə edən informasiya sistemləri ilə yanaşı “Qiymətli kağızlar üzrə nəzarət alt sistemi”nin yaradılması nəzərdə tutulmuşdur. |

| | | | |
|---|---|---|---|
| | | işlərin tamamlanması | Bu fəaliyyət çərçivəsində Mərkəzi Bankda iki texnoloji məhsul olan Qiymətli kağızların emissiyası sistemi və Qiymətli kağızların dövlət reyestri formalaşdırılmışdır.<br>“Qiymətli kağızların emissiyası sistemi”nin yaradılmasında əsas məqsəd qiymətli kağızlar bazarında Mərkəzi Bank, Milli Depozit Mərkəzi (MDM) və Bakı Fond Birjası (BFB) tərəfindən təqdim olunan xidmətlərin tam olaraq rəqəmsallaşdırılması və bununla da emitentlərə “bir pəncərə” prinsipli xidmətlərin təqdim edilməsidir. MDM və BFB ilə sıx kommunikasiyada həyata keçirilən layihə çərçivəsində investisiya qiymətli kağızların buraxılışının dövlət qeydiyyatına alınması, o cümlədən emissiya prospektlərinin təsdiqi, hüquqi şəxslərin yenidən təşkili zamanı səhm buraxılışının dövlət qeydiyyatına alınması, investisiya qiymətli kağızlarının dövriyyədən çıxarılması, emissiyanın yekunları haqqında hesabatın təsdiqi, investisiya qiymətli kağızlarının Azərbaycan Respublikası ərazisindən kənarda buraxılışı ilə bağlı dövlət qeydiyyatının aparılması və emissiya prospektində və buraxılışla bağlı qərara əlavə və dəyişikliklərin edilməsi prosesləri rəqəmsallaşdırılmışdır. Sistem müvafiq istifadəçi sınaqlarından keçirilmiş və 01 dekabr 2022-ci il tarixindən etibarən real istismara verilmişdır. |
| 4.2 | Dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu prinsipin sahəvi | Mərkəzi Bank tərəfindən maliyyə bazarlarına nəzarət subyektlərinin fəaliyyətinin lisenziyalaşdırılması və müvafiq icazələrin verilməsi zamanı müraciət edən tərəfindən təqdim olunması tələb olunan sənədlərin birbaşa Elektron Hökümət İnformasiya Sistemindən əldə olunması | Mərkəzi Bank tərəfindən maliyyə bazarlarında xidmətlərin rəqəmsallaşması zamanı müraciət edən tərəfindən təqdim olunması tələb olunan sənəd və məlumatların siyahısı müəyyən edilmişdir. Belə ki, Mərkəzi Bankın nəzarət subyektlərinin fəaliyyətinin lisenziyalaşdırılması və müvafiq icazələrin verilməsi zamanı müraciət edən tərəfdən, həmçinin qiymətli kağızların emissiyası və qeydiyyatı prosesində emitentlər tərəfindən qanunvericiliyin tələbinə əsasən bir sıra sənəd və məlumatların təqdim olunması tələb olunur. |

| | | | |
|---|---|---|---|
| | normativ hüquqi aktlarda təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması | | Qeyd olunanları, həmçinin “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 mart tarixli 1885 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (VXSİDA) dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirən əlaqələndirici qurum olmasını nəzərə alaraq, maliyyə bazarlarında xidmətlərin rəqəmsallaşması məqsədilə tələb olunan və aşağıda qeyd olunan sənəd və məlumatların real vaxt rejimində Mərkəzi Banka təqdim olunması təmin olunmuşdur:<br>- Dövlət İmtahan Mərkəzi (təhsil haqqında və peşəkar mühasib sertifikatı haqqında məlumatlar);<br>- Təhsildə Keyfiyyət Təminatı Agentliyi (xarici dövlətlərin ali təhsil müəssisələri tərəfindən verilmiş sənədlərin tanınmasını və ekvivalentliyinin müəyyən edilməsini təsdiq edən Şəhadətnamə);<br>- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (iş təcrübəsi haqqında məlumatlar);<br>- Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti (xarici fiziki şəxslər tərəfindən edilən müraciətlər zamanı yaşayış və iş icazəsi barədə məlumatlar);<br>- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (notarial qaydada təsdiq edilmiş sənədlər barədə məlumat);<br>- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (məhkumluq barədə arayış).<br>Əlavə olaraq, 23 noyabr 2022-ci il tarixli 6-1.17-2-2022-16931 nömrəli məktubla Azərbaycan Respublikasının İqtisadiyyat nazirliyi yanında Dövlət Vergi Xidmətinə fiziki və hüquqi şəxslərin (onların filial, nümayəndəlik və təsərrüfat subyektinin (obyektinin)) vergi uçotu haqqında məlumatlar, o cümlədən kommersiya hüquqi şəxslərin |

| | | | |
|---|---|---|---|
| | | | təsis sənədləri ilə əlaqədar məlumatların əldə olunması üçün müraciət olunmuşdur. |
| | | Maliyyə xidmətlərini tənzimləyən normativ hüquqi aktlarda maliyyə bazarlarına nəzarət subyektləri tərəfindən Mərkəzi Banka təqdim olunan sənədlərin dövlət qurumunda mövcud olduğu halda həmin sənədlərin müvafiq informasiya sistemlərindən alınmasını nəzərdə tutan müddəaların əks etdirilməsi | “Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 noyabr tarixli 1616 nömrəli Sərəncamının icrası ilə bağlı qanunvericilik aktlarına müvafiq dəyişiklik layihələrində müvafiq müddəalar nəzərə alınmışdır. |
| 4.10 | Dövlət qurumlarının informasiya ehtiyatlarında şəxsin ona aid olan məlumatları dəqiqləşdirməsi imkanını təmin edən elektron xidmətin yaradılması | Mərkəzi Bankda istismarda olan Mərkəzləşdirilmiş Kredit Reyestri sistemində şəxsin ona aid olan məlumatlarının Elektron Xidmətlər Portalı üzərindən dəqiqləşdirməsi imkanının təmin edilməsi məqsədilə servisin yaradılması | 2021-ci il ərzində Mərkəzləşdirilmiş Kredit Reyestrinin modernizasiyası və Mərkəzi Bankda istismarda olan Elektron Xidmətlər Portalı bazasında qurulması üzrə işlər həyata keçirilmişdir. Bu işlər çərçivəsində sistem yenidən yaradılmış və daha müasir platformada fəaliyyəti təşkil edilmişdir. Eyni zamanda, borcalanların onlara dair məlumatlarının Elektron Xidmətlər Portalı üzərindən dəqiqləşdirilməsi imkanı yaradılmışdır. |

| | | | |
|---|---|---|---|
| **5. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişləndirilməsi, ictimai nəzarət və ictimai iştirakçılığın artırılması sahəsində tədbirlər** | | | |
| 5.5 | İctimai şuraların əhəmiyyətinin artırılması, dövlət orqanlarında yaradılmış ictimai şuraların sayının çoxaldılması, şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai şuraların fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və dövlət qurumlarının rəsmi internet resurslarında əks etdirilməsi | Mərkəzi Bankın İdarə Heyətinin yanında yaradılmış Sahibkarlarla Əməkdaşlıq Şurasında müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, pandemiya şəraitində iqtisadi fəallığın dəstəklənməsi istiqamətində sahibkarlar və nəzarət subyektləri arasında əməkdaşlığın möhkəmləndirilməsi, sahibkarların maliyyəyə çıxış ilə əlaqədar üzləşdikləri çətinliklərin öyrənilməsi və onların həlli istiqamətində tədbirlərin davam etdirilməsi, Şuranın fəaliyyəti ilə bağlı məlumatların Mərkəzi Bankın rəsmi internet resurslarında əks etdirilməsi | Ölkədə sahibkarlarla maliyyə bazarlarının iştirakçıları, o cümlədən bank sektoru arasında mövcud əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsinə, xüsusilə Mərkəzi Bankın həyata keçirdiyi siyasət və fəaliyyət istiqamətlərinə dair aktual məsələlərin müzakirəsi məqsədilə 2023-cü il 9 mart tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin yanında Sahibkarlarla Əməkdaşlıq Şurasının yenilənmiş tərkibdə iclası keçirilmişdir. İclasda Şura üzvləri tərəfindən regionlarda və kənd yerlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyələşməsinin genişləndirilməsi, kiçik və orta biznes subyektlərinin maliyyə əlçatanlığı üzrə problemləri, qanunvericilik bazasının təkmilləşdirilməsi, turizm sektorunda fəaliyyət göstərən sahibkarların, eləcə də BOKT-ların qarşılaşdıqları problemlər, sahibkarların maliyyə savadlılığının artırılması və s. məsələlər müzakirə edilmiş və aidiyyəti qurumlarla birlikdə qaldırılmış məsələlərə çevik reaksiyalar verilmişdir. Həmçinin, Sahibkarlarla Əməkdaşlıq Şurasının iclasının protokolu tərtib olunmuş, iclasa dair geniş press-reliz Mərkəzi Bankın rəsmi internet səhifəsində yerləşdirilmiş, eyni zamanda kütləvi informasiya vasitələrində yayımlanması təmin olunmuşdur. |